# Klassik irsimizin təmənnasız tədqiqatçısı



Klassik ədəbiyyatımızın nadir bilicilərindən olan filologiya üzrə fəlsəfə doktoru Vərağa Almasovu ədəbiyyatşünaslar daha çox böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin tədqiqatçısı kimi tanıyırlar. Amma bu insanın elmi potensialına şəxsən bələd olanlar bilir ki, o, orta çağ və yeni dövr müsəlman Şərqi ədəbiyyatı və fəlsəfəsinin, müqəddəs Qurani-Kərimin, hədis və qissələrin mükəmməl bilicisi və hafizidir. Vərağa müəllim üçün Azərbaycan ədəbiyyatının hər hansı bir dövrünün poeziyasından danışmaq, fikir ifadə etmək çətinlik törətmir. Çünki o, poeziyamızın mayasını təşkil edən şifahi xalq ədəbiyyatımıza, mütəfəkkirlərimizin təlqin etmək istədiyi mütərəqqi ideyaların özəyində duran klassiklərimizin irsinə vaqif olan araşdırmaçıdır. O, klassiklərimizin irsindən nümunələri saatlarla əzbərdən söyləyə və təhlil, şərh edə bilir.

Mirzə Vərağa orta əsr və ilkin yeni dövr Azərbaycan şairlərinin yaradıcılığından danışanda, sanki, hər dəfə bir tədqiqat ortaya qoyur. Onun təhlilləri ünsiyyətdə olduğu alim həmkarlarını da çox zaman yeni araşdırmalara ruhlandırır. Ümumiyyətlə, Vərağa Almasovun tədqiqat üsulu elədir ki, o, kimdən, nədən yazırsa, ilk öncə həmin şəxsin yaradıcılığına, həmin əsərə ümumşərq, ümumtürk və bəşəri kontekstdə baxır. Həmin ədəbi simanın, tədqiqata cəlb olunan əsərin milli bədii təfəkkürümüzün inkişafında və dünya ədəbiyyatında yerini müəyyən etməyə çalışır, ona ilk öncə bu nöqteyi-nəzərdən qiymət verməyə cəhd edir.

Müəllifin istər “Füzuli yaradıcılığında dini-mənqəbəvi anlayışların yeri və bədii ifadə yolları (Türkcə divan və “Leyli-Məcnun” məsnəvisi üzrə)” mövzusunda yazdığı namizədlik dissertasiyası, istərsə də “Füzuli "Leyli-Məcnun"unun islami mahiyyəti”, “Peyğəmbər aşiqi Füzuli”, “Həzrəti-Əli Aşiqi Füzuli”, “İmam Hüseyn aşiqi Füzuli” kimi monoqrafiyaları alimin islam tarixinə, təsəvvüf ideologiyasına və sufi mütəfəkkirlərin yaradıcılığına söykənərək apardığı sanballı tədqiqat işləridir. Bu araşdırmalarda Vərağa müəllimin klassik Şərq poetikasını dərindən bilməsi də özünü aşkar biruzə verir, bununla yanaşı onun İslam müqəddəslərinə necə bağlı olması da aydın hiss olunur.

Filologiya üzrə fəlsəfə doktoru Vərağa Almasov XVII əsr Azərbaycan poeziyasının parlaq ulduzu Qövsi Təbrizi, XIX-XX əsr Azərbayca poeziyasında özünəməxsus dəsti-xətti olan Mirzə Ağadadaş Münirü ilə də yaxından məşğuldur. Onun “Qövsi Təbrizinin qələmində kamil insan portreti”, “Mirzə Ağadadaş Münirinin “Baharın ağlayışı” kitabı haqqında” kimi məqalələri buna aşkar dəlildir.

Lakin onu da qeyd etmək lazımdır ki, müəllif Azərbaycan ədəbiyyatının hansı dövründən yazırsa, yazsın ilk növbədə öz




tədqiqat obyektinə nəzər salarkən ilk növbədə onu Füzuli irsi ilə müqayisə edir. Mirzə Vərağa üçün Mövlanə Məhəmməd Füzuli bir məhək daşıdır.

Bu yaxınlarda alimin ilahiyyatçı həmkarı Hacı Həsən Hüseyni ilə bərabər qələmə aldığı İmadəddin Nəsimi irsi haqqında məqalələrdən ibarət yeni kitabı işıq üzü görüb. Qeyd etmək lazımdır ki, “Nəsimidən nəsimlər” adlanan bu kitabda da Mirzə Vərağa öz ənənəsinə sadiq qalır: böyük Nəsimini təkcə onu yetirən mühit müstəvisində, yaxud zamanımız prizmasında qiymətləndirmir, ona, onun irsinə, fəlsəfəsinə ümumşərq mədəni təfəkkürü kontekstində baxır. Bu kitabın üstün cəhəti odur ki, Nəsiminin anadili şeirimizin böyük ustadı, mütəfəkkir şair kimi ortaya çıxmasına səbəb olan amillərlə bərabər, Nəsimi irsinin özündən sonrakı ədəbiyyata təsiri də araşdırılır. Beləliklə, cəmi 100 səhifəlik materialı oxumaqla biz Nəsimi irsinin əsas ideya-fəlsəfi qaynaqları, onun təlqin etmək istədiyi vacib fikir istiqamətləri, Nəsimi yaradıcılığından aşkar və gizli bəhrələnmələr haqqında bilgi əldə edə bilirik.

Kitab onu söyləməyə imkan verir ki, müəlliflər Nəsimi irsinin tədqiqi ilə bağlı əsas elmi araşdırmalarla, Nəsimi yaradıcılığını müxtəlif istiqamətdən araşdıran, onun əsərlərinə şərh yazan, yaradıcılığını təhlil edən istər əvvəlki, istərsə də çağdaş tədqiqatçıların əsərləri ilə tanışdırlar. Topludakı “Lirik “mən”in Qurani nuru, “Həzrət Əli (ə) aşiqi Nəsimi”, “Dünyanın bədii dərkinə dair Nəsimi sualları”, “Nəsimi lirikasında şəxsiyyət bütövlüyü” və “Nəsiminin təfsirçiyə xitabı” adlı məqalələr obyektə orijinal yanaşmanı nümayiş etdirir. Bu məqalələrdə müzakirəyə çıxarılan problemlər İmadəddin Nəsiminin dini-fəlsəfi dünyagörüşünü, həyata, insana, onu əhatə edən maddi və mənəvi aləmə, yaradana münasibətini ortaya qoymağa yönəlib. Məqalələrdə müəlliflər “ədəbiyyat və din”, “dünya və insan”, “fərd və cəmiyyət”, “şəxsiyyət və zaman” kimi əbədi mövzular çərçivəsində Nəsimi irsinə yanaşır, şairi Quranı və dini ehkamları fəlsəfi-ideoloji bazada, geniş estetik panoramda ifadə etməyə can atan sənətkar kimi qiymətləndirirlər.

Kitaba yazılan “Giriş”də İmadəddin Nəsimi müəlliflər tərəfindən “sözlə dediyinə əməl paltarı geydirən, əqidəsi uğrunda tərkivətən olub, qanından-canından keçən, yorulmaz söz-sənət fədaisi” kimi qiymətləndirilir. Seyid İmadəddin Nəsiminin yaradıcılığını onun həyatının müxtəlif mərhələləri xaricində təhlil edən tədqiqatçılar sufiliyindən, hürufiliyindən asılı olmayaraq, şairi “könlünü Həzrəti-Əli (ə) şəminə pərvanə etmiş ərdəmli bir könül əri” kimi xarakterizə edirlər və fikirlərini sənətkarın müxtəlif şeirlərindən gətirdikləri nümunələrlə, tutarlı dəlillərlə əsaslandıra bilirlər. Bir sözlə, bu kitab bizi Nəsimiyə bir başqa nöqteyi-nəzərdən baxmağa çağırır, onun irsini daha diqqətlə oxuyub, dərk etməyə səsləyir.

“Nəsimidən nəsimlər” Vərağa Almasovun son nəşr olunan əseridir. Lakin onunla söhbətlərimizdən aydın olur ki, tədqiqatçı yeni araşdırmalar üzərində çalışır, onlar arasında bu kitabın davamının da olacağını istisna etmir.

Filologiya üzrə fəlsəfə doktoru Vərağa Almasov bu günlərdə 60 yaşına qədəm qoydu. Biz onu bu yubiley münasibəti ilə təbrik edir, ona möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzu edirik.

Kərimov, Paşa

***filologiya üzrə elmlər doktoru AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini,***

Nəcəfizadə, Əzizağa.

***filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi***